## METHODOLOGY OF TEASHİNG PRSCHOOL CHİLDREN PHYSİCAL TASKS

***Gazaxova Shahnaz Xalilhaci, Hagverdiyev Ilgar Arif***

***Summary***

The methods of teashing physical movements of preschool shildren are divided into three groups: visual and verbal practical.

Visualization methods are based on direct perception of physical tasks.All methodical principles are closely related to each other.

Only using all the principles will make it possible to achieve high results in physical education.

## МЕТОДИКА ОБУЧЕНИЯ ДЕТЕЙ ДОШКОЛЪНОГО ВОЗРАСТА ФИЗИЧЕСКИМ УПРАЖНЕНИЯМ

***Газахова Шахназ Халилхаджи кызы, Хагвердийев Ильгар Ариф Оглы***

***Резюме***

Методы обучения фтзическим движениям дошколъников делятся ра три группы : наглядные и словеснопрактические.

Методы визуализации основаны на непосредственном восприятии физических задач.Все методические принципы тесно связаны друг с другом.

Толъко исползование всех принципов позволит добитъся высоких резултатов в физическом воспитании.

***Rəyçi: b/m. İ.Haqverdiyev***
***Bədən tərbiyə və İdman kafedrasının 17 noyabr 2022-ci il tarixli iclsın 03 saylı protokolu***
***Daxil olma tarixi 23 noyabr 2022-ci il***

**UOT:355.**

## MÜASİR MƏRHƏLƏDƏ GƏNCLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN TƏŞKİLİ

***Məmmədova Mahnur Qafar qızı, Məmmədov Şahmar Rüstəm oğlu,***
***Əmiraslanov Sərxan Nail oğlu***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. Gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, hərbi-idman oyunlarının kütləviliyinin artırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Gənclərin Hərbi vətənpərvərlik tərbiyəsi ordu sıralarında hərbi xidmətə çağırış öncəsi hazırlığı təmin etməyə yönəlmişdir və onların vətənpərvərlik tərbiyəsində onun özünəməxsus yeri vardır.*

*Vətənpərvərliyin ali təzahürü xalq kütlələrinin cəmiyyət quruluşu məqsədyönlü fəaliyyəti, Vətənin müdafiəsi yolunda fədakar əməyindən ibarətdir. Ölkə qarşısında duran vəzifələrin yerinə yetirilməsi sahəsində əsas şərt xalq kütlələrinin hərbi vətənpərvərlik tərbiyəsinin, onların vətənin müdafiəsinə hazırlığından ibarətdir.*

**Açar sözlər:** hərbi vətənpərvərlik, gənclər siyasəti, təlim-tərbiyə işi, vətənin müdafiəsi, hərbi xidmət

**Ключевые слова:** военный патриотизм, молодежная политика, подготовка, защита Отечества, военная служба.

**Key words:** military patriotism, youth policy, training, defense of the Fatherland, military service

Gənc nəslin vətənpərvərlik tərbiyəsi dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biridir. Vətənpərvərlik tərbiyəsi öz Vətəninə sevgi və məhəbbət hissinin, vətəndaş məsuliyyətinin, hər an Vətəninin və xalqının müdafiəsinə qalxmağa hazırlığın formalaşması üçün olduqca vacibdir. Bu baxımdan təhsil müəssisələrində təlim-tərbiyə işinin düzgün təşkili mühüm əhəmiyyətə malikdir.

Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. Bu, ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən hesab olunur. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir. Azərbaycan Respublikası ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda da gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili daha böyük aktuallıq kəsb etmişdir. Heç şübhəsiz, bu məsələdə ümumtəhsil məktəblərinin X-XI siniflərində tədris olunan “Gənclərin çağırışaqədərki hazırlığı” fənni mühüm rol oynamışdı. Belə ki, bu fənn öz məzmunu etibarı ilə şagirdlərə Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatların, hərbi nizamnamə qaydalarının mənimsədilməsini, onların ordu həyatı ilə tanış olmalarını, hərbi xidmətə fiziki və psixoloji cəhətdən hazır olmalarını, şagirdlərdə Azərbaycanın Silahlı Qüvvələrində xidmətin müqəddəs borc və şərəf işi olmasına inamın yaradılmasını, vətənpərvərlik, əqidəlilik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətlərin inkişaf etdirilməsini, mülki müdafiə və ilkin tibbi yardım bacarıqlarının formalaşdırılmasını hər zaman nəzərdə tutulmuşdur.

Gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, hərbi-idman oyunlarının kütləviliyinin artırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Gənclərin Hərbi vətənpərvərlik tərbiyəsi ordu sıralarında hərbi xidmətə çağırış öncəsi hazırlığı təmin etməyə yönəlmişdir və onların vətənpərvərlik tərbiyəsində onun özünəməxsus yeri vardır. Lakin, vətənpərvərlik duyğularının aşılanması, gənclərin bu ruhda tərbiyəsi yalnız bu vəzifə ilə bitmir.

Əlbəttə, gənclərin vətənpərvərlik tərbiyəsini yalnız bir fənnin tədrisi ilə məhdudlaşdırmaq fikri reallıqdan uzaqdır. Belə ki, bütün fənlərin tədrisində, xüsusilə də humanitar-ictimai fənlərin tədrisində vətənpərvərlik tərbiyəsinin aşılanması üçün kifayət qədər imkanlar vardır. Vətən uğrunda, torpaqlarımız uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş şəxslərin,Silahlı Qüvvələrimizin şərəfli döyş yolları , beynəlxalq yarışlarda bayrağımızı yüksəldən idmançıların, Azərbaycanı dünyada tanıdan dövlət xadimlərinin, alim, yazıçı və incəsənət xadimlərinin şəxsi nümunələri də şagirdlər üçün əsl həyat, tərbiyə məktəbidir.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Milli Qəhrəmanları ilə, müharibə iştirakçıları ilə gənclərin mütəmadi görüşləri keçirilir,məktəblilərə torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının həyatı və qəhrəmanlıqları barədə ətraflı məlumatlar verilir.

Gənclərin vətənpərvərlik və dövlətçilik ruhunda tərbiyəsinin əhəmiyyətini, eləcə də ilkin hərbi bilik, bacarıq və vərdişlərin gənclərin inkişafına böyük təsirini nəzərə alaraq, aidiyyəti təşkilatlarla birlikdə ümumtəhsil məktəblərinin şagirdləri arasında ənənəvi "Cəsurlar", "Şahin", "Sərhəd" hərbi-idman və turizm respublika oyunları keçirilir. Elm və Təhsil Nazirliyinin Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, Könüllü Hərbi Vətənpərvərlik Texniki-İdman Cəmiyyəti Respublika Şurası və Respublika Veteranlar Şurası ilə işgüzar əlaqələri mövcuddur.

Ümumi təhsil müəssisələrində çağırışçı gənclərin vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin daha intensiv xarakter alması, bu sahədə həyata keçirilən tədbirlərin davamlılığının təmin olunması, gənclərdə fəal vətəndaş mövqeyi və doğma torpağa sədaqət hissinin formalaşdırılması vacib məsələlərdən biridir.

Vacib məqamlardan biri kimi gənclərin əsgər həyatı ilə yaxından tanış olmasını təmin etmək üçün onların daha sistemli şəkildə hərbi hissələrə aparılması nəzərdə tutulur. Əsas məqsəd hərbi hissələrdəki müasir silah və hərbi texnikalarla çağırışçı gəncləri tanış etmək, onlardan istifadə qaydaları barədə məktəblilərə ətraflı məlumatlar vermək və əsgərlik xidməti barədə təsəvvürlərini genişləndirməkdən ibarətdir. Eyni zamanda çağırışçı gəncləri hərbi xidmətə başlayan əsgərlərin andiçmə mərasimlərində iştirakıda planlaşdırılmalıdırdır.

Hökumətimiz ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsinə, şəxsi heyətin nailiyyətlərimizi qorumaq əzminin, sayıqlığının artmasına daim qayğı göstərir. Vətənin qorunması erməni qəsbkarlarının nəyin bahasına olursa olsun öz çirkin niyyətlərinə çatmaq üçün hərbi üstünlüyü əldə edərək öz iradələrini zorla qəbul etdirməyin qarşısını almaq səbəbindən irəli gəlir. 1980-ci illərin axırı, 1990-cı illərin əvvəlində erməni millətçilərinin və onların havadarlarının təcavüzkar fəaliyyətləri geniş vüsət alaraq, ölkəmizə qarşı açıq hərbi əməliyyatların keçirilməsi ilə nəticələndir. Ölkəmizin mövcud problemlərə konstruktiv mövqeyi SQ-in döyüş qabiliyyətinin, Azərbaycan xalqının sayıqlığının, onun ölkənin müdafiəsinə qalxmaq əzminin artması ilə müşahidə olundu.

Müdafiə qabiliyyətinin artması istiqamətində ölkə rəhbərliyinin fəaliyyətinin əsas sahələrindən biri də gənclərin hərbi-vətənpərvərlik tərbiyəsidr. O, əhlinin, xüsusən gənclərin Vətənin müdafiəsi sahəsində, mənəvi-psixoloji, hərbi və fiziki hazırlıq üzrə çoxşaxəli vəzifələri həyata keçirməyə xidmət edir. Vətənpərvər olmaq ölkənin iqtisadi, hərbi potensialını artırmaq, öz əsgəri borcunu layiqincə yerinə yetirmək deməkdir. Bunun üçün isə xalqa, ictimaiyyətə zidd hərəkətlərə qarşı barışmaq olmaz, ordu xidmət məktəbini keçərək müasir silah və döyüş texnikasını mənimsəyib, vətənin müdafiəsinə hazır olmaq lazımdır.

Müasir gənclər ata və babalarımız tərəfiindən bizə qalmış zəngin ideya-nəzəri örnəyə malikdirlər. Xalq kütlələrinin vətənpərvərlik tərbiyəsi, onların Vətənin müdafiəsinə hazırlığı bu örnəyin əsasını təşkil edir. Vətənə məhəbbət geniş xalq kütlələrinin qəlbində həmişə yaşamalıdır. Bu yadelli işğalçılara qarşı mübarizə öz təzahürünü mübariz şəkildə göstərmişdir.

27 sentyabr 2020-ci ildə Ermənistan ordusunun Azərbaycan Silahlı Qüvvələrinin döyüş mövqelərini, mülki obyektləri ağır artilleriya silahlarından atəşə tutması, düşmənin cəbhəboyu hücuma keçməsi xəbəri Azərbaycan xalqının səbr kasasını daşırdı. İldırımsürətli əks-hücum əməliyyatı ilə düşmən geri oturduldu və 44 gün davam edən qanlı savaş Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdı.Vətən müharibəsinin Azərbaycan Ordusunun qələbəsilə başa çatmasını Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, Prezident İlham Əliyev 10 noyabr tarixində gecə xalqa müraciətində xəbər verdi. Son 30 ildə ölkəmizin ən ciddi problemi sayılan Dağlıq Qarabağ münaqişəsi Azərbaycan xalqının istədiyi kimi həll olundu. Bəli, bu gün bütün dünyanın gözü Azərbaycandadır. Çünki 44 günlük Vətən savaşında Müzəffər

Azərbaycan Ordusu böyük qəhrəmanlıqla Ali Baş Komandan cənab İlham Əliyevin hərbi sərkərdəliyi və siyasi liderliyi sayəsində Azərbaycan torpaqlarını işğaldan azad edərək düşmənin belini qırdı. Azərbaycan xalqı müharibənin qalibidir və heç kim, heç nə xalqın bu qələbəsinə kölgə sala bilməz.

Vətən, onun işinə sədaqət, vətənpərvərliyin mahiyyəti olaraq, qüdrətimizin əsas mənbəyidir. Sistematik, məqsədyönlü tərbiyə işi geniş xalq kütlələrinin əzəli maraqları əsasında qurularaq, dinc ictimai quruluşun bərqərar edilməsinə xidmət edir.

Hərbi Vətənpərvərlik Tərbiyəsi – ümumi tərbiyənin tərkib hissəsi olaraq, insanlarda yüksək mənəvi-psixoloji, fiziki vərdişlərin, həmçinin Vətənin müdafiəsi üçün lazımi keyfiyyətlərin məqsədyönlü, planauyğun fəal prosesdir. Hərbi Vətənpərvərlik Tərbiyəsinin əsas məqsədi – Vətənə sadiq silahlı müdafiəçilərin hazırlanmasıdır.

Hərbi Vətənpərvərlik Tərbiyəsi işinin ideya-nəzəri əsasları milli ideologiyamız üzərində qurulmuşdur. Bu ideologiya xalqımızda Vətən, millət, cəmiyyət, vətənpərvərlik kimi anlayışlar formalaşdıraraq, şüurlu surətdə vətənin müdafiəsi sahəsində xalq kütlələrinin rolunun vacibliyinin mənimsəməsinə kömək edir. Hərbi Vətənpərvərlik Tərbiyəsi işində obyektiv amillərlə yanaşı subyektiv amillər də əhəmiyyətli rola malikdirlər. Bu kütləyə xalq kütlələrinin müxtəlif təbəqələri, partiyalar, ayrı-ayrı şəxsiyyətlər aiddirlər. İndiki dövrdə subyektiv amillərin rolu daha da artır. Belə ki, cəmiyyətimizin istiqamətverən qüvvəsi olan dövlətin rolu artmaqdadır.Dövlət Milli ideologiyamızın təbliğatçısı kimi Hərbi Vətənpərvərlik Tərbiyəsi işinin bütün sisteminə rəhbərlik edir.

Vətənin müdafiəsi dövlətin əsas vəzifələrindən biri olmaqla ümumxalq işidir. Azərbaycan Respublikasının Vətəndaşları-dövlət maraqlarını qorumalı, onun müdafiə qabiliyyətini, şan-şöhrətini artırmağa borcludurlar.

Hərbi Vətənpərvərlik Tərbiyəsinin ümumi prinsipi vahid məqsəd və məqsədə çatmaq üçün vəzifələrdən ibarətdir. Belə ki, Hərbi Vətənpərvərlik Tərbiyəsi ümumi tərbiyənin tərkib hissəsi olub, onun məqsədlərinə malikdir və bu məqsədlər ümumi tərbiyə işinin əsas vəzifələrindən ibarətdir.

Hərbi Vətənpərvərlik Tərbiyəsinin ümumi prinsiplərindən biri konkret-tarixi baxış prinsipidir. Tarixi şəraitdən asılı olaraq, Hərbi Vətənpərvərlik Tərbiyəsi forma və məzmununu dəyişmiş, inkişaf etmiş və konkretləşmişdir. Konkret tarixi baxış prinsipi keçmiş və indiki hadisələrdə bilavasitə və ya əlaqələrin seçilməsinə şərait yaradaraq inkişafın ana xəttinə və əsas meyllərini göstərməyə kömək edir. Məhz buna görə də bu prinsipə daim riayət etmək Hərbi Vətənpərvərlik Tərbiyəsinin inkişaf etdirilməsinə böyük rola malikdir.

Silahlı Qüvvələrdə və bütövlükdə hərbi işin inkişaf meyllərinin müxtəlif dəfişikliklərinin Hərbi Vətənpərvərlik Tərbiyəsi işinin uçotnun aparılması prinsipi özünün əvvəlki prinsipi ilə sıx əlaqədardır. Belə ki, ən etibarlı müdafiə edilməsi baxımından çıxış edilərək hadisələrin tez zamanda inkişaf etdirilməsini nəzərə alaraq düşmənə layiqli cavab vermək üçün mənəvi-siyasi psixoloji, hərbi-texniki və fiziki keyfiyyətlərdən kompleks istifadə edərək qabaqcıl təcrübədən və yeniliklərdən bəhrələnmək lazımdır.

Əslində milli müstəqilliyimizin əsası Heydər Əliyev Azərbaycanda ilk dəfə hakimitə gəldiyi zaman yaratmağa başlamış, 70-80-ci illərdə onu daha da inkişaf etdirmişdir. Vətənpərvər, yaradıcı, qurucu bir şəxsiyyət olan Heydər Əliyevin respublikanın hərtərəfli inkişafı və tərəqqisində xidmətləri əvəzsiz olmuşdur. Müstəqilliyimizin ilk illərində ölkədə özbaşınalığın, xaosun baş alıb getdiyi, "olum ya ölüm" günlərinin yaşandığı bir vaxtda Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gətirildi. Dağıdılmış ölkəni, məhv edilmiş milli ləyaqəti, milli qüruru bərpa etmək üçün Heydər Əliyev vətəndaş həmrəyliyinə nail oldu. "Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram!" deyən Heydər

Əliyev 1993-cü ildən müstəqilliyimizin qarantı, dövlətimizin Ordu quruculuğumuzun memarı, yaradıcısı və qurucusu kimi Azərbaycan tarixinin şanlı səhifəsini yazdı.

Dövlətçiliyimizin, müstəqilliyimizin qorunub saxlanması, demokratiyanın inkişafı, insan hüquqlarının, iqtisadiyyatın bərpası və s.-də əldə edilən nailiyyətlər məhz onun gərgin əməyinin nəticəsidir. Heydər Əliyev vətənpərvərliyin, sülhün, əmin-amanlıgın təminatçısı, xalqının rəhbəri, türk dünyasının lideri, millətin ümid və inam yeri idi.

O, harada olmağından asılı olmayaraq vətən mənafeyini bütün mənafelərdən üstün tutmuşdur. Müasir gəncliyin Hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirən H.Əliyev göstərirdi ki, "bizim gənclər gərək hazırlaşsınlar ki, XXI əsrdə Azərbaycanın inkişafını təmin edə bilsinlər. Bunun üçün biliklənmək. təlısil almaq, sağlam həyat tərzi keçirmək, mənəvi milli dəyərlərimizə söykənmək və ümumbəşəri dəyərlərdən səmərəli istifadə etmək lazımdır”.

Cəmiyyətin hərtərəfli inkişafında biliyə, təhsilə xüsusi diqqət yetirən Heydər Əliyev yaxşı bilirdi ki, bunlar olmazsa ölkədə heç bir uğur qazanıla bilməz. Məhz bu meyarları əsas tutan ulu öndərin yüksək döyüş qabiliyyətinə malik silahlı qüvvələrin yaranmasında, formalaşmasında və inkişaf etməsində xidmətləri əvəzsizdir. Müharibə istəməyən Heydər Əliyev atəşkəsi tez-tez pozan nankor düşmənə hiddətlənib göstərirdi ki, “bu gün hamı, ən əvvəl əli silah tuta bilən vətənin müdafiəsinə qalxmalıdır. Vətənin müdafiəsi hər bir kəsin müqəddəs borcudur”.

Nəhayət, gənclərin Hərbi vətənpərvərlik tərbiyəsində əsrlərlə haqqında danışılacaq, şəninə dastanlar, qəhrəmanlıq, zəfər nəğmələri qoşulacaq, tarixi salnamələrdə öz əksini tapacaq 44 günlük Vətən savaşımız qalibiyyətlə başa çatdırıldı. Terrorçu Ermənistan dövləti Ali Baş Komandanımız İlham Əliyevin bütün şərtləri, tələbləri ilə qeyd-şərtsiz razılaşmalı oldu. 15 noyabrda Kəlbəcərin, 20 noyabrda Ağdamın, 1 dekabra qədər Laçın rayonunun işğaldan azad edilməsi ilə Azərbaycanın dünya birliyi, beynəlxalq təşkilatlar tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olundu,xalqımızın 30 illik həsrətinə son qoyuldu.

44 günlük Vətən savaşının bir günü bəlkə də hər birimiz üçün 1 il qədər gərgin və həyəcanlı keçdi. Çünki Azərbaycan xalqının adına yazılmış ləkəni Azərbaycan oğulları döyüş meydanında qanı, canı bahasına təmizləyirdi. Bu ləkə adımızdan da, alnımızdan da, şərəfimizdən də silindii. Bunu bizə bəxş edən Rəşadətli Ordumuza və Müzəffər Ali Baş Komandana eşq olsun deyirik! Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və bundan sonra da müzəffər xalq, qalib dövlət kimi əbədi yaşayacaq. 44 günlük Vətən müharibəsində Zəfər Günü Xeyirin Şər üzərində qələbəsi və tarixi ədalətin təntənəsidir. Xalqın "dəmir yumruq"da birləşərək düşmənə zərbə vurması tarixin əbədi yaddaşına yazılmışdır. Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" şüarı altında birləşən xalqın qəhrəmanlığı dünyaya bizim birliyimizi, iradəmizi və əzmkarlığımızı nümayiş etdirmişdir. Vətən uğrunda şəhid olanlar əsla unudulmayacaq, çünki onlar özlərindən sonrakı nəsil üçün silinməz, unudulmaz dastan yazdılar.

## ОРГАНИЗАЦИЯ ВОЕННО-ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ МОЛОДЕЖИ НА СОВРЕМЕННОМ ЭТАПЕ

***Мамедова Махнур Гафар кызы, Мамедов Шахмар Рустам оглы, Амирасланов Сархан Наил оглы***

***Резюме***

Являясь одним из важнейших направлений государственной молодежной политики, воспитание молодого поколения в патриотическом духе всегда находится в центре внимания страны. Принимаются постоянные меры в направлении укрепления патриотических чувств у молодежи, увеличения массовости военно-спортивных игр.

Военно-патриотическое воспитание молодежи направлено на обеспечение подготовки к военной службе в рядах армии и занимает особое место в воспитании их патриотизма.

Высшим проявлением патриотизма является целеустремленная деятельность народных масс в общественном строю и самоотверженный труд на защиту Родины. Главным условием в области выполнения стоящих перед страной задач является воспитание воинского патриотизма народных масс, их подготовка к защите Родины.

## ORGANIZATION OF MILITARY PATRIOTIC EDUCATION OF YOUTH IN THE MODERN STAGE

***Mammadova Mahnur Gafar, Mammadov Shahmar Rustam,***
***Amiraslanov Sarkhan Nail***

***Summary***

As one of the most important directions of the state youth policy, education of the young generation in a patriotic spirit is always in the center of attention in our country. Continuous measures are being taken in the direction of strengthening the feelings of patriotism among young people and increasing the mass of military-sports games. Military patriotism education of young people is aimed at providing preparation for military service in the ranks of the army, and it has a special place in their patriotism education.

The highest manifestation of patriotism consists of purposeful activity of the masses of the people in the social structure and selfless work for the defense of the Motherland. The main condition in the field of fulfilling the tasks facing the country is the education of military patriotism of the masses of the people, their preparation for the defense of the motherland.

***Rəyçi: dosent Nəbiyev Niyazi***
***Mülki müdafiə və çağrışa qədərki hazırlıq kafedrasının 22 dekabr 2022-ci il tarixli iclasın 04 saylı protokolu***
***Daxil olma tarixi: 23 dekabr 2022-ci il***

**UOT:37.**

## NİZAMİ GƏNCƏVİNİN FİZİKİ TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

***Qazaxova Şahnaz Xəlilhacı qızı, Cəfərov Urfan Xəlil oğlu***
***Gəncə Dövlət Universiteti***
**Shahnaz_qazaxova@mail.ru**

**Xülasə:** *Dahi şair və böyük Alim olan Nizaminin əsərlərində Fiziki tərbiyə, təbiətşünaslıq, riyaziyyat, astronomiya, kosmologiya, fəlsəfə, ilahiyyat, tibb, psixologiya, musiqi və s. elmlərə aid zəngin və dərin elmi mahiyyətə malik olan məlumatlara rast gəlirik. Bütün bunlar ona dəlalət edir ki, Nizami Gəncəvi öz dövrünün bütün elmlərinə dərindən yiyələnən böyük alim olmuşdur.*

*Müasir elmi pedaqogikaya görə tərbiyənin başlıca tərkib hissələrindən biri də fiziki tərbiyədir. "Fiziki bacarıqların və fiziki keyfiyyətlərin, habelə gigiyenik bilik və bacarıqların insanlara məqsədyönlü və planlı surətdə aşılanması prosesi fiziki tərbiyədir".*

*Fiziki tərbiyə, şübhəsiz ki, ümumi fiziki inkişafın təmin olunmasında fiziki kamilliyin əldə edilməsi prosesində mühüm rol oynayır.*